**UDC:** 32.; 323.
**LBC:** 63.3(2)6-6; 63.3 (2)64; 63.3(5 e)64
**MJ №** 395
10.33864/2617-751X.2025.v8.i8.116-126

# WORKS OF HAJI ZEYNALABDIN SHIRVANI

**Brilyant Abbasova***

**Abstract.** The article explores the life and scholarly-cultural heritage of Haji Zeynalabdin Shirvani, a prominent Azerbaijani traveler, scientist, and enlightener of the 19th century. Shirvani’s broad worldview, observations during his journeys, and the notes he recorded are vividly reflected in his works. His writings, such as Riyaz as-Siyahat, Hadaiq as-Siyahat, and Bustan as-Siyahat, which brought him worldwide recognition, are highly valued from scientific, historical, ethnographic, and cultural perspectives. It is emphasized that these works are not only travelogues but also bear an encyclopedic character. The information presented in Shirvani’s works holds great importance for understanding the socio-political, economic, and cultural life of the 19th century.

**Keywords:** Haji Zeynalabdin Shirvani, Azerbaijani traveler, Riyaz as-Siyahat, Hadaiq as-Siyahat, Bustan as-Siyahat, travelogue, ethnography, cultural heritage

---

* Institute of Oriental Studies, Azerbaijan National Academy of Sciences, Department of Iranian History and Economy, Senior Laboratory Assistant; Baku, Azerbaijan
E-mail: rzalibrilyant3@gmail.com
https://orcid.org/0009-0009-6561-7646

**To cite this article:** Abbasova, B. [2025]. WORKS OF HAJI ZEYNALABDIN SHIRVANI. *“Metafizika” journal, 8*(8), pp.116-126.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i8.116-126

***Article history:***
*Received: 26.05.2025*
*Accepted: 30.06.2025*
*Published: 01.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 32.; 323.
**ББК:** 63.3(2)6-6; 63.3 (2)64; 63.3(5 e)64
**MJ №** 395
10.33864/2617-751X.2025.v8.i8.116-126

# ПРОИЗВЕДЕНИЯ ХАДЖИ ЗЕЙНАЛАБДИНА ШИРВАНИ

**Бриллиант Аббасова***

**Абстракт.** В статье исследуется жизнь и научно-культурное наследие выдающегося азербайджанского путешественника, ученого и просветителя XIX века Гаджи Зейналабдина Ширвани. Богатый кругозор Ширвани и наблюдения, сделанные им во время путешествий, а также записи, которые он вел, нашли отражение в его произведениях. Работы Ширвани, принесшие ему мировую известность, такие как «Рияз ас-сияхат», «Хадайиг ас-сияхат» и «Бустан ас-сияхат», высоко оцениваются с научной, исторической, этнографической и культурной точек зрения. Эти произведения рассматриваются не только как путешествия, но и как энциклопедические труды. Информация, содержащаяся в его работах, имеет большое значение для понимания общественно-политической, экономической и культурной жизни XIX века.

**Ключевые слова:** Хаджи Зейналабдин Ширвани; азербайджанский путешественник; «Рияз ас-сияхат»; «Хадаик ас-сияхат»; «Бустан ас-сияхат»; путевые заметки; этнография; культурное наследие

* Институт Востоковедения Национальной Академии Наук Азербайджана, отдел истории и экономики Ирана, старший лаборант; Баку, Азербайджан
E-mail: rzalibrilyant3@gmail.com
https://orcid.org/0009-0009-6561-7646

**Цитировать статью:** Аббасова, Б. [2025]. ПРОИЗВЕДЕНИЯ ХАДЖИ ЗЕЙНАЛАБДИНА ШИРВАНИ. *Журнал «Metafizika»*, *8*(8), c.116-126.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i8.116-126

***История статьи:***
*Статья поступила в редакцию: 26.05.2025*
*Отправлена на доработку: 30.06.2025*
*Принята для печати: 01.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 32.; 323.
**KBT:** 63.3(2)6-6; 63.3 (2)64; 63.3(5 e)64
**MJ №** 395
10.33864/2617-751X.2025.v8.i8.116-126

# HACI ZEYNALABDİN ŞİRVANİNİN ƏSƏRLƏRİ

**Brilyant Abbasova***

**Abstrakt.** Məqalə XIX əsrin görkəmli Azərbaycan səyyahı, alim və maarifçisi Hacı Zeynalabdin Şirvaninin həyatı və elmi-mədəni irsini araşdırır. Şirvaninin zəngin dünyagörüşü və səyahətləri zamanı apardığımüşahidələr və qələmə aldığı qeydləri onun əsərlərində öz əksini tapmışdır.Şirvaninin qələminin məhsulu olan və ona dünya şöhrəti gətirən “Riyaz əs-siyahət”, “Hədayiq əs-siyahət” və “Bustan əs-siyahət” kimi əsərləri elmi, tarixi, etnoqrafik və mədəni baxımdan çox yüksək qiymətləndirilir. Bu əsərlərin yalnız səyahətnamə deyil, həm də ensiklopedik xarakter daşıdığı göstərilir. Şirvaninin əsərlərində qeyd etdiyi məlumatlar XIX əsrin ictimai-siyasi, iqtisadi və mədəni həyatını anlamaq üçün çox mühüm əhəmiyyət kəsb edir.

**Açar sözlər:** Hacı Zeynalabdin Şirvani, Azərbaycanlı səyyah, “Riyaz əs-siyahət”, “Hədayiq əs- siyahət”, “Bustan əs-siyahət”, səyahətnamə, etnoqrafiya, mədəni irs

* AMEA, Şərqşünaslıq İnstitutu, İran tarixi və iqtisadiyyatı şöbəsi, baş laborant; Bakı, Azərbaycan
E-mail: rzalibrilyant3@gmail.com
https://orcid.org/0009-0009-6561-7646

**Məqaləyə istinad:** Abbasova, B. [2025]. HACI ZEYNALABDİN ŞİRVANİNİN ƏSƏRLƏRİ. *“Metafizika” jurnalı, 8*(8), səh.116-126.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i8.116-126

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 26.05.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 30.06.2025*
*Çapa qəbul edilmişdir: 01.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit
https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Hacı Zeynalabdin Şirvani XIX əsrin ilk onilliklərində yaşamış tanınmış səyyah, maarifpərvər ziyalı, alim və ədəbi şəxsiyyətlərdən biridir. O, qədim Şamaxıda dünyaya göz açmış, erkən təhsilini isə Kərbəla və digər İslam elm ocaqlarında almışdır. Ərəb, fars və türk dillərində dərin biliyə yiyələnən Şirvani, həm dini-fəlsəfi, həm də dünyəvi elmlərə maraq göstərmiş, xüsusilə coğrafiya və tarix sahəsində özünü təsdiqləmişdir. Elm öyrənmək və dünyanı yaxından tanımaq həvəsi onu Asiya, Avropa və Afrika ölkələrinə uzun səyahətlərə çıxarmışdır. O, getdiyi yerlərdə yalnız seyrçi kimi davranmamış, müşahidələrini diqqətlə qeydə alaraq onları elmi, etnoqrafik və mədəni araşdırmalara çevirmişdir. Onun yazılarında müxtəlif ölkələrin siyasi həyatından tutmuş, sosial-iqtisadi durumuna, gündəlik məişətindən mədəni dəyərlərinə qədər geniş mənzərə təqdim olunur.

## 2.Hacı Zeynalabdin Şirvaninin həyatı

Hacı Zeynalabdin Şirvani XIX əsrin əvvəllərində yaşamış, tanınmış səyyah, alim, maarifçi və ədəbi şəxsiyyətlərdən biridir. O, Hacı Zeynalabdin ibn İsgəndər Şirvani Nemətullahi adı ilə tanınır və 16 avqust 1780-ci ildə Şamaxıda anadan olmuşdur. Uşaqlıq illərini həm Şamaxıda, həm də ailəsi ilə birlikdə köçdükləri Kərbəlada keçirmiş, ibtidai təhsilini bu şəhərlərdə almışdır. Şirvani ərəb, fars və türk dillərində mükəmməl biliyə sahib olmuş, gənc yaşlarından elmə, coğrafiyaya və dini-fəlsəfi biliklərə böyük maraq göstərmişdir. O, kitab mütaliəsini sevməklə yanaşı, ərəb, fars, türk və hind dillərində olan əsərləri oxuyaraq öz biliyini genişləndirmişdir. Şirvani uzun illər boyunca Asiya, Avropa və Afrika ölkələrinə səyahətlər etmiş, İran, Türkiyə, Hindistan, Ərəbistan, Yəmən, Misir və Avropanın bəzi şəhərlərində olmuşdur. Bu səfərlərdə o, yalnız ziyarət və şəxsi məqsədlər üçün deyil, həm də elmi, mədəni və etnoqrafik məlumatlar toplamaq üçün səy göstərmişdir.

Şirvaninin ölüm tarixi və yeri ilə bağlı müxtəlif məlumatlar mövcuddur. Araşdırmalar göstərir ki, o, hicri-qəməri tarixi ilə 1253-cü ildə (1837-1838) Qırmızı dənizi keçərkən gəmidə vəfat etmişdir.

## 3.Əsərlərin dövrü və əhəmiyyəti

Hacı Zeynalabdin Şirvaninin əsərləri XIX əsrin əvvəllərində yaranmışdır və bu dövr Şərq dünyasında həm siyasi, həm də mədəni baxımdan əhəmiyyətli dəyişikliklərin müşahidə olunduğu bir zamandır. O dövrdə Azərbaycan, İran, Osmanlı və Hindistan kimi bölgələrdə ictimai-siyasi vəziyyət, ticarət əlaqələri, eləcə də təhsil və dini mərkəzlərin fəaliyyəti dinamik şəkildə dəyişirdi. Şirvaninin səyahətləri məhz bu tarixi kəsişmə nöqtələrində baş vermiş, onun müşahidələri dövrün reallıqlarını qələmə almağa imkan yaratmışdır. Onun əsas əsərləri - “*Riyaz əs-siyahət*”, “*Hədayiq əs-siyahət*” və “*Bustan əs-siyahət*” - yalnız coğrafi səyahət təsvirləri deyil, həm də tarixi, mədəni və elmi məlumatlar toplusudur. Bu əsərlər vasitəsilə oxucu XIX əsr Şərq dünyasının:

- Coğrafi mənzərəsi
- İqtisadi və ticarət strukturları
- Xalqın gündəlik həyat və adət-ənənələri
- Dini və fəlsəfi baxışları haqqında dolğun təsəvvür əldə edir.

Beləliklə, Şirvaninin əsərləri yalnız səyahət və müşahidə qeydləri kimi dəyərli deyil, həm də tarixi, etnoqrafik, dilçilik və mədəni araşdırmalar üçün unikal mənbə rolunu oynayır. Onun əsərləri XX və XXI əsrdə müasir elmi tədqiqatçılar üçün də yeni perspektivlər açan zəngin qaynaq kimi qiymətləndirilir. İndi isə bu məşhur səyyahın əsərləri içərisində ən çox tanınan 3 əsəri "Səyahət bağları" ("Riyaz əs-siyahət"), "Səyahət bağçaları" ("Hədayiq əs-siyahət") və "Səyahət bustanı" ("Bustan əs-siyahət") haqqında məlumat verək.

## 4.Hacı Zeynalabdin Şirazinin əsərləri

### 4.1."Səyahət bağları"("Riyaz əs-siyahət")

Hacı Zeynalabdin Şirvaninin yaradıcılığında "Riyaz əs-siyahət" xüsusi yer tutur. Bu əsər müəllifin səyahətlərinin ən geniş təsvirini təqdim etməklə yanaşı, həm də dövrün ictimai, mədəni və coğrafi mənzərəsini əks etdirən zəngin mənbədir. Əsərin yüksək elmi və bədii dəyəri həm müasir tədqiqatçılar, həm də dövrün ziyalıları tərəfindən diqqətlə dəyərləndirilmişdir. "Şirvaninin ən məşhur əsəri elə məhz bu əsəridir. Bu əsər Abbasqulu Ağa Bakıxanovun xüsusi diqqətini cəlb etmiş və bu əsəri "zəngin və faydalı xəzinə" adlandırmışdır" [1, s.220].

"Riyaz əs-siyahət" yalnız müəllifin deyil, həm də onun əsərlərini araşdıran ziyalıların diqqət mərkəzində olmuşdur. Əsərin elmi və mədəni əhəmiyyətini ilk dəyərləndirənlərdən biri də Azərbaycan maarifçisi və tarixçisi Abbasqulu ağa Bakıxanov idi. Onun bu əsərə göstərdiyi maraq həm Şirvaninin yaradıcılığına, həm də bütövlükdə Azərbaycan səyahətnamə ənənəsinə diqqətin artmasına səbəb olmuşdur.

"Riyaz əs-siyahət"i Azərbaycan alimlərindən ilkin oxuyub araşdıran Abbasqulu ağa Bakıxanov idi. "Riyaz əs-siyahət"in ikinci hissəsi Qüdsinin şəxsi kitabxanasında olmuşdu və əsər onun "Gülüstan i-İrəm"i işləyərkən topladığı mənbələrdən biri idi. Bakıxanovun vəfatından sonra həmin əlyazmanı həyat yoldaşı Səkinə xanım 1852-ci ildə Sankt-Peterburqdakı Asiya muzeyinə bağışlamışdı. Elə həmin il bu dəyərli hədiyyə haqqında Rusiya Xalq Təhsili Nazirliyinin jurnalında dərc edilən xəbər şərqşünasların diqqətini həm Hacı Zeynalabdin Şirvaninin özünə, həm də bu əsərə daha da artırır" [2].

"Riyaz əs-siyahət" yalnız elmi mənbə deyil, həm də müəllifin səyahətə baxışını və fəlsəfi düşüncəsini əks etdirən bir əsərdir. Kitabın əvvəlində verilən ifadə Şirvaninin səyahəti bilik və maarif yolunun bir hissəsi kimi dəyərləndirdiyini göstərir. Bu əsər iki hissədən ibarətdir. Müəllif əsərini aşağıdakı kəlmələrlə başlayır:

Hər kim asan səyahət istəyərsə "Riyaz əs-siyahət"i oxusun [3].

"Riyaz əs-siyahət"in əlyazmalarının yayılması əsərin nüfuzunun və geniş oxucu kütləsinə təsirinin göstəricisidir. Müxtəlif ölkələrin kitabxana və arxivlərində saxlanılan nüsxələr əsərin həm Şərqdə, həm də Qərbdə elmi maraq doğurduğunu göstərir. "Riyaz əs-siyahət"in birinci hissəsinin dörd əlyazması məlumdur. Onlardan biri Leninqradda Saltıkov-Şedrin adına kitabxananın əlyazmalar fondunda,ikisi SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun Leninqrad filialının Əlyazmalar fondunda və dördüncü isə Tehranın Parlament kitabxanasında saxlanılır [4, s.21].

Şirvani əsərlərində hadisələrin və yazılma prosesinin tarixlərini çox diqqətlə qeyd etmişdir. Bu, onun əsərlərinə əlavə elmi dəyər qazandırır, çünki oxucu yalnız məzmunla deyil, həm də müəllifin hansı şəraitdə və hansı zaman çərçivəsində işlədiyi ilə tanış olur. "Riyaz əs-siyahət"in ikinci hissəsinin tamamlanma tarixi də bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. "Riyaz əs-siyahət"in ikinci hissəsi hicri-tarixi ilə 1242-ci ilin zilhiccə ayının 7-də, miladi tarixi ilə 23 iyul 1827-ci ildə sona çatmışdır. Aşağıdakı sətirlər bu mövzudan xəbər verir: "O, bu kitabın yazılmasını Məlik Vəhhabın köməyi ilə Şiraz şəhərində hicrətin 1242-ci ilində zilhiccə ayının 27-də bazar ertəsi günü bitirdi [5, s.1107].

"Riyaz əs-siyahət"in sonunda müəllifin əlavə etdiyi qeydlər əsərin yazılma prosesi barədə qiymətli məlumat verir. Burada Şirvani əsərin qısa müddətdə və müəyyən çətinliklər altında tamamlandığını bildirir. O, vaxt məhdudiyyətinə görə bəzi nöqsanların qaçılmaz olduğunu qeyd edir və gələcək oxucuların bu çatışmazlıqları düzəltməsinə ümid etdiyini vurğulayır. Bu cür səmimi etiraf müəllifin elmi vicdanlılığını və obyektivliyini nümayiş etdirir. "Riyaz əs-siyahət"in birinci hissəsinin sonunda bu yazı gözə çarpır: "Həqiqətən bu ürəkaçan bağın və ruhu oxşayan nüsxənin yazılması üçün son dərəcə ciddiyyət tələb olunduğu halda, lakin alicənab Abbasqulu Ağa ibn-Mirzə Məhəmmədxan səfərə tələsdiyi üçün onun yazılmasını tələb etdikdə məcbur qalıb bir neçə gün ərzində Məhəmməd Təqi ibn-Məhəmməd Qasim Salyani ilə birlikdə 1258-ci ilin şəvval ayında Qubada onu bitirmək şərəfinə nail oldum. Ümidvaram ki, həqiqət axtaranlar onun nöqsan və qüsurlarının fürsətin azlığı və durumun gərginliyindən qaynaqlandığını bilərək islah etməyə çalışacaqlar" [6].

### 4.2."Səyahət bağçaları" ("Hədayiq əs-siyahət")

Hacı Zeynalabdin Şirvaninin ikinci böyük əsəri "Hədayiq əs-siyahət" ("Səyahət bağçaları") hesab olunur. Bu əsər "Riyaz əs-siyahət"in davamı kimi qəbul olunur. Əvvəlki əsərdə olduğu kimi müəllifin gördüyü ölkələr, şəhərlər, bölgələr, eləcə də onların mədəni, dini və sosial həyatına dair zəngin təsvirlər təqdim olunur. Əsərdə xüsusilə ictimai həyat və adət-ənənələrə diqqət yetirilir. Müəllif yalnız coğrafi təsvirlərlə kifayətlənmir,həm də insanların gündəlik

yaşayış tərzini, davranış qaydalarını, məişət ənənələrini geniş şəkildə işıqlandırır. Əsərin dəyəri ondadır ki, o dövrün səyahət ədəbiyyatında nadir hallarda rast gəlinən şəxsi müşahidələr və təcrübələr burada əks olunmuşdur. "Hədayiq əs-siyahət" həm də Şirvaninin ensiklopedik dünyagörüşünü göstərir-burada tarix, coğrafiya, etnoqrafiya və fəlsəfi mülahizələr bir arada təqdim edilir. "Hədayiq əs-siyahət" təkcə coğrafi və tarixi məlumatların toplusu deyil, həm də dövrün mədəni və dini həyatının ensiklopedik təsviridir. Əsərdə Şirvani şəxsi müşahidələrini də qeyd edir ki, bu, onu sadəcə səyyah qeydlərindən fərqləndirir. Yəni o, gördüyü hadisələri obyektiv olaraq qeydə alır, həmçinin insanlar, adət-ənənələr və gündəlik həyat haqqında analitik şərhlər verir. Əsərin əlifba sırası ilə tərtib edilməsi, onun mətnin sistematik quruluşuna verdiyi önəmdən xəbər verir. Bu, sanki bir coğrafi lüğət və ya ensiklopedik məlumat kitabı kimi işləyir. Şirvani əsərdə tarix, coğrafiya, etnoqrafiya, fəlsəfə və dini bilikləri birləşdirərək, dövrünün məlumat mənbələrini bir araya gətirir. Şirvaninin dili təsviri, poetik və müşahidəçi üslubların qarışığıdır. Bu, oxucuda həm məlumat alma, həm də dövrün mədəni mənzərəsini duyma imkanı yaradır. Əsər həm səyahət tarixi, həm də Azərbaycan və qonşu regionların tarixi-mədəni araşdırmaları üçün qiymətli mənbədir. Onun 30 ildən çox işlənməsi və hicri 1242-ci ildə tamamlanması, həm də Şirvaninin müasir dövr üçün metodik və davamlı araşdırma ənənəsi yaratdığını göstərir.

"Hədayiq əs-siyahət" həm məzmunu, həm də qorunma tarixi ilə diqqət çəkir. Əsərin müxtəlif nüsxələrinin bu günədək gəlib çatması onun yalnız Azərbaycan və Şərq elmi mühitində deyil, həm də Avropada maraq doğurduğunu göstərir. Əlyazmaların dünyanın aparıcı kitabxanalarında saxlanılması əsərin beynəlxalq miqyasda tanındığının bariz nümunəsidir. "Hədayiq əs-siyahət"in üç əlyazması qorunub saxlanmışdır: biri Britaniya muzeyində, digəri Paris milli kitabxanasında və üçüncüsü isə İranda özəl mülkiyyətdədir [4, s.22]. Əsərin üç əlyazmasının qorunması (Britaniya Muzeyi, Paris Milli Kitabxanası, İranda özəl kolleksiya) əsərin beynəlxalq elmi və mədəni dəyərini təsdiqləyir. Bu əlyazmalar vasitəsilə əsərin müxtəlif variantları və tərtib üslubları araşdırıla bilər, həmçinin Şirvaninin iş metodları haqqında ətraflı məlumat əldə etmək mümkündür.

### 4.3."Səyahət bustanı" ("Bustan əs-siyahət")

Hacı Zeynalabdin Şirvaninin 3-cü əsəri "Bustan əs-siyahət" ("Səyahət bustanı") adlanır. Şirvaninin səyahətnamələri arasında "Bustan əs-siyahət" xüsusi əhəmiyyətə malikdir. Bu əsər müəllifin topladığı zəngin müşahidələri sistemli şəkildə əks etdirir və oxucuya həm coğrafi, həm də etnoqrafik baxımdan geniş məlumat verir. Onun quruluş prinsipi də diqqətəlayiqdir və müəllifin digər əsərləri ilə paralellik təşkil edir. "Bustan əs-siyahət" Hacı

Zeynalabdin Şirvaninin ən mühüm əsərlərindən biridir və müəllifin uzun illər ərzində etdiyi səyahətlərin geniş təsvirini ehtiva edir.

Əsər həm coğrafi və tarixi faktların, həm də ictimai-mədəni müşahidələrin zəngin mənbəyidir. Burada müəllif yalnız gördüyü şəhərlər, ölkələr, bölgələri deyil, həm də insanların gündəlik həyatı, adət-ənənələri, dini inancları və sosial davranışlarını qeyd edir. Şirvani hər hansı bir ölkə və ya bölgəni təsvir edərkən yalnız coğrafi sərhədlərlə kifayətlənmir, o, həmin məkanın çayları və su ehtiyatları, ərazisinin ölçüsü və relyefi, iqlim və təbiət xüsusiyyətləri barədə də ətraflı məlumat verir. Bununla yanaşı, əhalinin mədəniyyətini, adət-ənənələrini, gündəlik məişət qaydalarını və məşğuliyyət sahələrini diqqətlə təsvir edir. “Bu əsərdə müxtəlif ərazilərin iqlimi haqqında ayrıca bir fəsil yerləşdirilmişdir ki, orada çoxlu faydaları olan, dəqiq məlumatlar da yer almışdır. Məsələn, səyyah dəqiqliklə qeyd etmişdir ki, birinci iqlimdə bir günün müddəti 13 saat, ikinci iqlimdə 13,5 saat, üçüncü iqlimdə 14 saat və nəhayət dördüncü iqlimdə 14,5 saatdır” [4, s.23]. Müəllif həmçinin həmin məkanların tarixi keçmişinə, iqtisadi fəaliyyətinə, təbii sərvətlərinə, orada yetişən bitkilərə, ağac növlərinə və meyvələrə də xüsusi yer ayırır. Bu yanaşma “Bustan əs-siyahət”i sadəcə səyahətnamə deyil, həm də ensiklopedik biliklər toplusu kimi dəyərli mənbəyə çevirir.

“Bustan əs-siyahət” yalnız məzmun baxımından deyil, həm də quruluş etibarilə diqqətəlayiqdir. Müəllif əsəri sistemli şəkildə bölmələrə ayıraraq onu həm elmi, həm də ədəbi baxımdan oxunaqlı etmişdir. Əsərdəki hər bir hissənin xüsusi adlandırılması Şirvaninin mətnə bədii çalar vermək istəyindən xəbər verir. “Bustan əs-siyahət” ön sözdən, dörd müfəssəl babdan, 1 seyr, 28 gülşən, 4 gülzar və bir bahardan ibarət olmaqla tərtib olunmudur. Gülşənlərin hər biri müəyyən 1 hərflə başlayır [4, s.22].

“Bustan əs-siyahət”də Şirvani yalnız coğrafi və tarixi məlumatlarla kifayətlənmir, həm də təsvir etdiyi xalqların mənəvi keyfiyyətlərinə xüsusi diqqət ayırır. Onun Azərbaycan xalqı haqqında söylədiyi fikirlər səmimi müşahidələrin nəticəsi olmaqla yanaşı, müəllifin doğma xalqına olan dərin bağlılığını da göstərir. “Səyahət bustanı” əsəri Hacı Zeynalabdin Şirvaninin öz doğma xalqına, onun zəngin mədəniyyətinə və ədəbiyyatına bəslədiyi dərin sevgisinin bariz nümunəsidir. Müəllif Azərbaycan xalqının əxlaqi dəyərlərini yüksək qiymətləndirərək onları xüsusi vurğulayır. “Azərbaycanlılar səxavətli, işi sevən və çox qonaqpərvər bir xalqdır. Üzün gözəlliyi və bədənin qəşəngliyinə görə seçilirlər. Şücaət və cəsurluq baxımından Rüstəm və İsgəndər kimidilər. Onlar qorxaqlıq, xəbislik və pisniyyətlikdən uzaqdırlar” [7, s.325].

Şirvaninin əsərlərində yalnız Şərq xalqları deyil, rus xalqı haqqında da geniş məlumat verilir. Onun müşahidələri göstərir ki, müəllif rusların tarixinə, mədəniyyətinə və gündəlik həyatına böyük maraq göstərmişdir. Xüsusilə iki

xalq arasındakı dostluq münasibətlərini vurğulaması bu əsərləri təkcə səyahətnamə deyil, həm də xalqların qarşılıqlı əlaqələrini öyrənmək üçün dəyərli mənbəyə çevirir. Burada, həmçinin rus və azərbaycan xalqları arasında əsrlər boyu davam edən dostluq münasibətləri barədə də bilgilər yer alır. Şirvaninin əsərləri onun rus xalqına göstərdiyi böyük hörmət və səmimiyyətin göstəricisidir və bu əsərlər iki xalq arasındakı tarixi əlaqələrin araşdırılması baxımından dəyərli mənbə sayılır. Səyyah-alim rusların mədəni irsinə, ədəbiyyatına, tarixinə, elminə və adət-ənənələrinə xüsusi maraq və rəğbət bəsləmişdir. O, rus xalqını igid, zəhmətkeş, bacarıqlı və təşəbbüskar kimi təqdim edərək onların müsbət keyfiyyətlərini ön plana çıxarmışdır. Müəllif yazır: "ruslar öz vətəninin şücaətli müdafiəçiləri kimi məşhurlaşmışlar" [7, s.299]

"Bustan əs-siyahət" Hacı Zeynalabdin Şirvaninin ən dəyərli əsərlərindən biri kimi həm Şərqdə, həm də Qərbdə geniş yayılmışdır. Əsərin müxtəlif nüsxələrinin dünyanın müxtəlif kitabxana və arxivlərində qorunması onun elmi nüfuzunu və beynəlxalq əhəmiyyətini göstərir."Bustan əs-siyahət"in dörd əlyazması məlumdur. Biri Böyük Britaniya muzeyində, digəri Leninqradda Saltıkov-Şedrin adına ümumi kitabxanada, üçüncüsü Gürcüstan SSRİ Elmlər Akademiyasının Əlyazmalar fondunda və dördüncüsü isə İranda özəl mülkiyyətdə saxlanılır [4, s.24]. Kitabın sonunda belə yazılır: "Bu mübarək kitab olan "Bustan əs-siyahət"i Allahın lütfü ilə hicri-qəməri tarixi ilə 1248-ci ilin rəcəb ayının 27-də Şiraz şəhərində bitirmişdir. Əsərin üzünü Qəzvinli katib, mərhum Mirzə Məhəmməd Şərif Zeynalabdin hicri-qəməri tarixilə 1310-cu il şaban ayının 23-də Tehranda köçürmüşdür..." [7, s.661].

"Bustan əs-siyahət"in yazılma tarixi tədqiqatçılar arasında geniş müzakirə mövzusu olmuşdur. Fikir ayrılıqları əsasən əsərin hansı illərdə tamamlandığı və sonradan üzərində aparılan dəyişikliklərlə bağlıdır. Bu müxtəlif yanaşmalar əsərin uzun müddət ərzində işlənməsinin və müəllifin ona dəfələrlə qayıtmasının nəticəsi kimi dəyərləndirilə bilər. Əsərin yazılma tarixi ilə bağlı müxtəlif fikirlər irəli sürülmüş, tədqiqatçılar arasında müəyyən mübahisələr yaranmışdır. "Bustan əs-siyahət"in yazılma prosesi mərhələlərlə başa çatmışdır. Müəllif əsər üzərində uzun illər çalışaraq onu dəfələrlə nəzərdən keçirmişdir. Əsərin əvvəlcə yazılıb, daha sonra redaktə edilməsi Şirvaninin elmi dəqiqliyə və sistemli işləməyə xüsusi önəm verdiyini göstərir. "*Bu əsərin bir hissəsini 1247-ci ildə (1831-32) yazmışdır. 1248-ci ildə (20 dekabr 1832) o, bu əsər üzərində işləməyi bitirmiş və 1250-ci ildə (1834-35) əsərə bir sıra dəyişikliklər edərək, onu tamamilə redaktə etmişdir*" [4, s.24].

"Bustan əs-siyahət" XIX əsrin əvvəllərində Azərbaycan, Qafqaz, Orta Asiya və Yaxın Şərq haqqında zəngin məlumatlar təqdim edir. Bu əsər vasitəsilə həmin dövrdəki ictimai-siyasi hadisələr, mədəni mühit və gündəlik həyat haqqında birbaşa mənbədən bilgilər əldə etmək mümkündür.

Şirvaninin əsərləri yalnız məzmun baxımından deyil, həm də dil xüsusiyyətlərinə görə diqqətəlayiqdir. O, fars dilində qələmə aldığı səyahətnamələrində bədii təsvir, poetik üslub, dini terminologiya və folklor elementlərini birləşdirərək çoxqatlı bir mətn yaratmışdır. Bu yanaşma əsərlərin dilini sadəcə təsviri yox, həm də emosional və ədəbi cəhətdən zəngin edir. “Şirvaninin “Riyaz əs-siyahət”, “Hədayiq əs-siyahət” və “Bustan əs-siyahət” əsərləri fars dilində yazılıb. Əsərlərinin çoxu səyahətnamə janrına aid olsa da, onların içində şeir dili, sufi terminologiyası, Quran sitatları, atalar sözləri və klassik şairlərə (Sədi, Hafiz, Firdovsi və s.) istinadlar geniş yer tutur” [8, s.72-79].

Hacı Zeynalabdin Şirvaninin əsərləri təkcə Azərbaycan elmi mühitində deyil, həm də xarici alimlər tərəfindən yüksək dəyərləndirilmişdir. Onun səyahətnamələri müxtəlif dövrlərdə tarixçilərin, şərqşünasların və etnoqrafların diqqətini çəkmiş, Şərq dünyasının öyrənilməsində mühüm mənbə rolunu oynamışdır. “Azərbaycanlı tarixçi A.A.Bakıxanov, rus tarixçisi akademik B.A.Dorn, rus şərqşünası N.V.Xanıkov (1819-1878), azərbaycanlı maarifçi F.Köçərli (1863-1920), rus etnoqraf və səyyahı Nikolay-Nikolayeviç Mikluxo-Maklay (1846-1888), fransız şərqşünası Anri Massenin (1886-1969) çox böyük qiymət verdiyi“Səyahət bağları”adlı əsərin Azərbaycan oxucusuna çatdırılmasında AMEA Şərqşünaslıq İnstitunun İran tarixi və iqtisadiyyatı şöbəsinin elmi işçisi Şahin Yəhyayevin böyük rolu olmuşdur” [8, s.72-79].

**5.Nəticə**

Hacı Zeynalabdin Şirvani öz dövrünün yalnız bir səyyahı deyil, həm də Şərq və Qərb dünyasını birləşdirən mədəni körpü idi. Onun əsərləri göstərir ki, səyahət sadəcə müşahidəçilik aktı deyil, həm də ictimai və elmi dəyərə malik olan bilik toplama prosesidir. Şirvani gördüyü ölkələrin coğrafi quruluşunu, təbii sərvətlərini, iqtisadi fəaliyyətlərini, dini və fəlsəfi baxışlarını, gündəlik məişətini diqqətlə təsvir edərək onları ümumbəşəri mədəni irsin bir hissəsinə çevirmişdir.

Əsərlərindəki sistematik yanaşma, əlifba üzrə quruluş, geniş təsvirlər və şəxsi müşahidələr onu klassik səyahətnamələrdən fərqləndirir. Bu baxımdan, Şirvaninin əsərləri təkcə Azərbaycan və Şərq tarixinin deyil, həm də qlobal sivilizasiya proseslərinin öyrənilməsi üçün mühüm elmi mənbədir.

Nəticə etibarilə, Şirvani irsi müasir dövr üçün də aktualdır. Onun müşahidələri və qeydləri təkcə tarixi hadisələrin şahidi kimi yox, həm də multikultural dəyərlərin qorunmasına, xalqlar arasında mədəni inteqrasiyanın gücləndirilməsinə xidmət edən bir örnəkdir. Şirvaninin əsərləri XXI əsrin elmi dünyasında da etnoqrafik, tarixşünaslıq və mədəniyyətşünaslıq baxımından yeni tədqiqat perspektivləri açmaqdadır.

**6.ƏDƏBİYYAT**

1. Bakıxanov, A. A. (1951). *Gülüstani-İrəm.* Bakı, s.220.
2. Hüseynov, R. (2024). Səyyahın son dayanacağı. *525-ci qəzet.*
3. Şirvani, H. Z. (n.d.). *Hədaiq əs-siyahət.* Paris: Milli kitabxanası, N 1305, sənəd 289 B.
4. Şirvani, H. Z. (n.d.). *Səyahət bağları (Riyaz əs-səyahət)* (İkinci hissə, I cild).
5. Şirvani, H. Z. (1973). *Riyaz əs-siyət* (II cild). Moskva, s.1107.
6. Şirvani, H. Z. (n.d.). *Riyaz əs-siyət* (Sənəd 217 B, SSRİ EA-nın Şərqşünaslıq İnstitutunun Leninqrad filialının əlyazması, Arxiv N D-131).
7. Şirvani, H. Z. (1936). *Bustan əs-siyət.* Tehran.
8. Abbasova, B. (2025). Hacı Zeynalabdin Şirvaninin "Səyahət bağları" əsəri. *History of Science*, *6*(3), 72–79. https://doi.org/10.33864/2790-0037.2025.v6.i3.72-79

**REFERENCES**

1. Bakikhanov, A. A. (1951). *Gulustani-Iram.* Baku, p.220. (in Azerbaijani)
2. Huseynov, R. (2024). The traveler's last stop. *525th Newspaper*. (in Azerbaijani)
3. Shirvani, H. Z. (n.d.). *Hadaiq al-Siyahat.* Paris: National Library, No. 1305, document 289 B. (in Azerbaijani)
4. Shirvani, H. Z. (n.d.). *The Gardens of Travels (Riyaz al-Siyahat)* (Part Two, Vol. I). (in Azerbaijani)
5. Shirvani, H. Z. (1973). *Riyaz al-Siyahat* (Vol. II). Moscow, p.1107. (in Azerbaijani)
6. Shirvani, H. Z. (n.d.). *Riyaz al-Siyahat* (Document 217 B, Manuscript of the Leningrad Branch of the Institute of Oriental Studies, USSR Academy of Sciences, Archive No. D-131). (in Azerbaijani)
7. Shirvani, H. Z. (1936). *Bustan al-Siyahat.* Tehran. (in Azerbaijani)
8. Abbasova, B. (2025). "The Gardens of Travels" by Haji Zayn al-Abidin Shirvani. *History of Science*, *6*(3), 72–79. https://doi.org/10.33864/2790-0037.2025.v6.i3.72-79 (in Azerbaijani)